**Elegiya**

*Gümüş təyyarəsi enəcək yerə,*
*Trapın başında görünəcəkdir.*
*Onu göziəyənlär durub nizamla*
*Xoş təbəssümlərə bürünəcəkdir.*

*Əlini eyhamca çəkib saçına*
*Naxışlı pilləni düşəcək bir-bir.*
*Kənarda dayanan oğluna tərəf*
*Beş addım yeriyib görüşəcəkdir.*

*Sonra cərgəsində silahdaşların*
*Hamının  əilini sıxıb keçəcək.*
*Hamının ruhuna, qəlbinə bu dəm*
*Dolacaq ətirii yaz küləyi tək.*

*Sonra jurnalistlər... yanındakına*
*Kim isə, qoy görək, deyəcək, əl çək.*
*Hansı sualdansa gülümsünəcək,*
*Hansı sualdansa ciddiləşəcək.*

*Oaratel bir qızın sualı min-min*
*Duruşu, gülüşü sualdır bütün.*
*Hamı ləngiyəcək bu gözəlliklə*
*Gözünü, könlünü doyurmaq üçün.*

*Təyyarə ləngiyir...*
*ləngiməz, yox, yox.*
*Qulaq as, göylərə, onun səsidir.*
*Təyyarə ləngiməz, gəlib çıxacaq,*
*Təyyarə Prezident təyyarəsidir.*

*Gözüm üfüqlərdə qalacaq mənim,*
*Trapla enəcək əl edib Heydər.*
*Enəcək, gələcək gözləyirəmsə,*
*Bəs*
*neçin*
*ağlayır*
*əlimdə güllər...*

***Məstan Günər***

***Mədəniyət. – 2009. – 9 may. S. 23.***

***Bir oğul göstərin Heydərə bənzər. – B. : Nağıl evi, 2009. – S.59-60.***